# Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisası

Həyat fəaliyyətinin təhlükəsizliyi elmi biliklərə əsaslanan sahə olaraq, insanların bütün fəaliyyət sahələrində təhlükəli və zərərli faktorlardan mühafizəsinin nəzəri və əməli qaydalarını əhatə edir, onların yaşayış mühitində təhlükəsizliyini və sağlamlığını qorumaq məqsədi güdür. Həyat fəaliyyətinin təhlükəsizliyinə daxildir:

- Məişətdə təhlükəsizlik

-İstehsalatda təhlükəsizlik

- Sülh dövründə fövqəladə hadisələr zamanı təhlükəsizlik

-Təhükəsizlik texnikası - təhlükəli şəraitdə və ZM (zəhərli maddə) işləyənlərin təsirinin qarşısını alan təşkilatı tədbirlərdən ibarət bir sistemdir. Həyat fəaliyyətinin təhlükəsizliyi elə bir şərait və şərtlərdir ki, hansı işçilərin olduğu mühitdə neqativ təsirlər mümkün deyil.

***Bu ixtisas sahibi nə işlə məşğul olur? (iş öhdəlikləri)***

- Ölkədə mülki müdafiə işinin təşkili;

- Ayrı-ayrı istehsalat sahələrində, iqtisadiyyat obyektlərində proseslərin təhlükəsiz görülməsi;

-Baş verə biləcək fövqəladə halların qarşısının alınması;

-Baş vermiş fövqəladə hallara çevik reaksiya verilməsi;

-Bütün təsərrüfatlarda təhlükəsizliyin təmin ediməsi;

**Bu ixtisas üzrə harada çalışmaq olar?**

-FHN-nin qurumları: Mülki Müdafiə Qoşunlarının hərbi hissələri və şöbələri, Xüsusi Riskli Xilasetmə Xidməti, Böhran vəziyyətlərdə idarəetmə mərkəzləri (ən çox statistika və maarifləndirmə ilə məşğuldurlar);

-Neft-qaz, tikinti və s. sahələrində: əməyin mühafizəsi mütəxəssisləri, SƏTƏMM (Sağlamlıq Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) mühəndisləri (təhlükəsizlik texnikasına cavabdeh şəxslər).

***İxtisasın gələcəyi***

Sahənin gələcəyi indiki vəziyyətinə görə perspektivli görünür. Bu sahə üzrə kadrlara tələb son illərdə artmağa başlamışdır. Bu baxımdan Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisası üzrə milli kadrların hazırlanmasının Mingəçevir Dövlət Universitetində də həyata keçirilməsi məqsədəuyğundur.